UOR 94 (479.24)
https://doi.org/10.59849/2710-0820.2024.1.37

**Arzu Bəbirova**
*AMEA Tarix və Etnologiya İnstitutun doktorantı*
*Azərbaycan*
*bebirovaarzu@gmail.com*

# ŞƏDDADİLƏR DÖVLƏTİNİN TARİXİNƏ DAİR İLKİN QAYNAQLARA ÜMUMİ BİR BAXIŞ

***Açar sözlər:*** *Şəddadilər, qaynaqlar, mənbələr, sikkələr Ani dövrü, Səlçuqlular, münaqişə,*

Ərəb Xilafəti zəiflədiyi bir zamanda Azərbaycan ərazisində bir sıra yarım müstəqil dövlətlər meydana gəldilər. Belə şəraitdə ərəb qaynaqlarının bir qismində Arran, böyük bir qismində isə Azərbaycan olaraq xatırlanan ərazidə, indiki Azərbaycanın qərb torpaqlarında və Qərbi Azərbaycan adlanan ərazidə 951-ci ildə Şəddadilər dövləti yarandı. Şəddadilərin istər mənsubluğu, istərsə də bir çox tarixi problemləri indiyə qədər əhatəli şəkildə və vahid baxış acısı ilə öyrənilməmişdir. Problemin bu cür araşdırılmasının bir sıra səbəbləri mövcud olsa da ən başlıca səbəb qaynaqların, xüsusilə də yerli qaynaqların azlığıdır. Bu səbəbdən də indiyə kimi qaynaqlara münasibət formasında onların təsnifatına dair heç bir tədqiqat əsərində rast gəlinmir. Mövcud məqalədə dövrün probleminə dair qaynaqları sadəcə olaraq təsnif olunmur, eləcə də onlara ümumi münasibət də bildirilir.

Şəddadilər dövləti tarixinə dair qaynaqlar azlıq təşkil etsə də, lakin onların verdiyi məlumatlar olduqca qiymətlidir. Bəhs etdiyimi problemin tədqiqi üçün istifadə olunan qaynaqlar əsasən iki qrupa bölünür. 1. Arxeoloji qaynaqlar. Bu tip qaynaqlara dövriyyədə olan sikkələr və dövrə dair tarixi abidələr üzərindəki kitabələr aiddir. 2. Yazılı qaynaqlar. Bu qaynaqları yazıldığı dilə uyğun olaraq ərəbdilli, farsdilli, ermənidilli, gürcü dilli, yunan və latın dilli olmaqla bir neçə alt qrupa bölmək olar.

***1. Arxeoloji qaynaqlar***

Şəddadilər dövrünə dair çox təəssüf ki, əlimizdə çox əhatəli və çox növlü arxeoloji tapıntılar mövcud deyildir. Bu dövrə dair ən çox qarşılaşdığımız arxeoloji məmulatlar sikkələrdir. Bir dövlətin orta əsrlərdə müstəqil olduğunu göstərən əlamətlərdən biri də sikkə zərbidir. Sikkələr üzərində dövlət hakiminin adı, ləqəbi və bəzən də zərb tarixi və yeri əks olunardı. Şəddadilər dövrünə dair ilk sikkələr 95/996-cı ildə kəsilməyə başladı. Bərdə zərbxanasında kəsilən pullar Əmr I Fəzlin adına idi. Bundan başqa Gəncə zərbxanasında kəsilən Əmir I Fəzl, Əbülfəth Musa, Əmir II əl-Ləşkəri, Əbüləsvar Şavurun adına sikkələr zərb olunmuşdur. Sikkələrə diqqət yetirdiyimiz zaman bir neçə məqam nəzərə çarpır. İlk olaraq sikkələr tamamilə Şəddadi hakimlərinin adına kəsilmir. Şəddadilərin ilk dövründə Ərəb Xəlifələrinin adlarını, son dövrlərində isə Səlcuqlu hökmdarlarının adlarını görmək mümkündür (17). Bu sikkələrin təhlili dövlətin mövcud vəziyyəti haqqında müvafiq dəyərləndirmə aparmaq üçün olduqca əhəmiyyət kəsb edir.

Kitabələr adətən bir tiklinin nə zaman və kim tərəfindən tikildiyin göstərmək üçün daş üzərinə ya oyma, ya da qabartma formasında həkk olunan yazılı abidələrdir. Şəddadilər dövrünə dair kitabələrin sayı az olsa da çox böyük əhəmiyyətə malikdir. Şəddadilərin Gəncə dövrünə dair Şəmkir qalasının üzərindəki 1050/1051-ci ilə aid kitabəni və məşhur "Gəncə qapıları" üzərindəki yazını misal göstərmək olar (ş, s.284-285).Şəddadilərin hakimlik kimi öz varlıqlarını sürdürdükləri Ani dövrünə dair bir sıra kitabələr qalmaqdadır (5).

***2. Yazılı qaynaqlar***

Şəddadilər dövləti tarixinə dair müxtəlif dillərdə bir çox qaynaqlar mövcuddur. Bunların içərisində ərəbdilli qaynaqların öz yeri vardır. Bu tip qaynaqlardan bir çox dövrümüzə qədər gəlib çatsa da, bir qımının sadəcə adı mövcuddur. Dövrümüzə qədər gəlib çatmayan əsərlərin

demək olar ki, hamısı yerli qaynaqlardır. Ərəb dilində yazılmış bu qaynaqlara misal olaraq Əbülheyca ər-Rəvvadinin "Tarixül-Azərbaycan", Əl-Bərdəyinin "Tarixül-Arran" (m1, s. 4), Fəxrəddin Əbülfəzl İsmayıl bin Müsənna ət-Təbrizinin "Tarixül-Azərbaycan" (25,s. 55-56) əsərlərini göstərmək olar. Çox təəssüf ki, bəlkə də dövr üçün ən geniş və ən obyektiv məlumat verəcək bu əsərlərin heç bir əlyazması zamanımıza qədər gəlib çatmamışdır.

Şəddadilər dövləti tarixi üçün ən mühüm əsərlərdən bir müəllifi məlum olmayan "Tarixül-Babül-Əbvab və Şirvan və Arran" əsəridir. Əsərin ərəbcə bir parçasını Münəccimbaşı Əhməd bin Lütfullah özünün "Camiüd-düvəl" öz əsərinə daxil etmiş, bu parçanı isə V. Minorski ingilis dilində nəşr etdirmişdir. Təxminən 1106/1107-ci illərə aid olan bu əsər Şəddadilər tarixinə dair yeganə əhatəli əsərdir. "Tarixül-Babül-Əbvab və Şirvan və Arran" əsəri Məhəmməd bin Şəddadın Dvin şəhərinə gəlməsindən 1076-cı il Səlcuqluların Şəddadilərə son qoyduğu dövrə qədər tarixi əhatə edir (12).

Əhməd bin Yusif bin Əli əl-Əzraq əl-Farikinin "Tarxül-Məyyafariqin və Amid" adlı əsəri Şəddadilərin bir hakimlik kimi Anidə fəaliyyətlərinə dair ən dəyərli qaynaqdır. Əsər haqqında ən yaxşı tədqiqat V.Minorksiyə məxsusdur (13). Bu əsər sadəcə Şəddadilər tarixi ilə bağlı deyil, eləcə də Atabəylər tarixi ilə bağlı, əsasən də Atabəy Şəmsəddin Eldənizin gürcülər üzərinə yürüşü haqında unikal məlumatlar vermişdir.

İbn əl-Əsir adı ilə tanınan İzzəddin Əli bin Məhəmməd bin Məhəmməd əş- şeybani əl-Cəzəri on cilddən ibarət olan "Əl-Kamil fit-tarix" əsərində Şəddadilər tarixi və onun hökmdarları haqqında məlumatlar verir. Əsərin IX-X cildlərində mövcud olan müvafiq məlumatları nəzərdən keçirdikdə görmək mümkündür ki, Şəddadilərə dair məlumatlar çox azdır. Burada 1030-cü ildə Fəzl bin Məhəmmədin Xəzər üzərinə yürüş etdi məlumat ilə birlikdə 1075/76-cı il hadisələrindən də bəhs olunur (6).

Şəmsəddin Əbülmüzəffər Yusif bin Qızoğlu bin Abdullah ət-Türki, digər adı ilə Sibt İbnül-Cevzinin "Miratüz-zaman fi Tarixül-ayan" adlı əsərində Şəddadilərin Gəncə dövrünün son illərinə dair qiymətli məlumatlar yer almışdır (19). Bu əsərdə xüsusilə Sultan Məlikşahın 1067-1068-ci illərdə Ərməniyyə və Gürcüstan üzərinə yürüşünə dair başqa tarixi mənbələrdə olmayan məlumatlar əks olunmuşdur ki, bu da araşdırılan dövrü üçün çox əhəmiyyətlidir.

Məhəmməd bin Əli bin Məhəmməd əl-Əziminin "Tarixi-Əzimi" əsəri qısa İslam tarixi olmasına rəğmən özündə bir çox fərqli məlumatları ehtiva edir 1134- 1144-cü illərə qədərki tarixi hadisələri əhatə edən "Tarixi-Əzimi" əsərində 1047/48-ci il Qutlamışın Gəncəni mühasirəyə alması, 1049/1050-ci ildə Əbüləsvarın Gəncə hakimi olması və bir sıra Şəddadilə tarixinə dair digər önəmli məsələlər əsərdə əks olunmuşdur (4).

Şəddadiləri gürcülər və Səlcuqlu imperatorluğu ilə münasibətləri haqqında iki əsər digərlərinə nisbətən daha çox məlumatı ehtiva edir. Bunlardan birincisi Sədrəddin Əbdülhəsən Əli bin Nəsr bin Əli əl-Hüseyninin "Əxbarüd-dövlə əs- Səlcuqiyyə" əsəridir (18). Digər bir əsər isə Əbdürrəhman bin Əli bin Məhəmməd Əbülfərəc Cəmaləddin İbnül-Cevzinin "Əl-müntəzəm fit-tarixül-müluk" adlı əsəridir (1). Hər iki əsər qısa xronoloji formalı əsər olsa da onların verdiyi məlumatlara digər mənbələrdə rast gəlmək mümkün deyil.

Farsdilli qaynaqlara nəzər saldıqda burada məlumatların çox kasad olduğunu müşahidə edirik. Misal üçün istər ilkin dövr "Səlcuqnamə" əsərlərində (23), istərsə də sonrakı dövr "Səlcuqnamə"lərdə (15) bəhs etdiyimiz dövrə dair demək olar ki, heç bir məlumata rast gəlinmir.

Farsdilli qaynaqlar içərisində ən geniş məlumat ədəbiyyat nümunələri içərisindədir. Uzun zaman Gəncədə yaşamış Qatran Təbrizi Şəddadi hökmdarlarına mədhiyyələr yazmaqla məşhurdur. Onun "Əbülmüzəffər Fəzlin mədhi" qəsidəsi ilə bərabər digər şer və qəsidələrində Şəddadilərin ətraf bölgə hakimlikləri, Səlcuqlular və Tiflis Əmirliyi ilə münasibətlərinə dair məlumatlar da əldə etmək mümkündür (10).

Ziyarilər xanədanının son hökmdarı Qabus ibn Vəşmgir tərəfindən yazılmış "Qabusnamə" əsəri Şəddadilər tarixinin öyrənilməsi üçün fərqli farsdilli qaynaqdır. Əsərin həm Səid Nəfisi tərəfindən təshihinin azərbaycanca tərcüməsi (9), həm də osmanlıca (8) variantları eyni dərəcədə qiymətlidir. Şəddadi hakimləri Imir Əbüləsvar və Əmir Fəzl, onların bəzi təyinatları haqqında vacim məlumatlar bu əsəri olduqca dəyərli bir qaynaq səviyyəsinə yüksəldir.

Şəddadilərin Ani hakimliyi dövrünə aid dəyərli qaynaqlardan biri də Qazi Bürhanəddinin "Ənisül-qülub" əsəridir. Nəzmlə yazılıb 28 min beytdən ibarət olan əsərin Qazı Bürhanəddinin uşaqlıq dövrünə dair hissələr bəhs etdiyimiz dövrü öyrənmək üçün olduqca qiymətli məlumatlardır. Onun atasının sepahdar və ləşkərkeş vəzifələrində çalışması və bunun həmin əsərdə qeyd olunması dövrün hərbi məsələlərinə dair təsəvvür yaratmağa imkan verir (7).

Gürcü dilli qaynaqlar içərisində "Kartlis Sxovreba" əsəri Şəddadilərin Gəncə və Ani dövrü üçün geniş olduğu qədər qiymətli məlumatlar verir. Əsərin bir çox dillərdə bir sıra tərcümələri mövcud olsa da onun ən mükəmməl nəşri rus dilində olan tərcüməsidir (24). XI – XIV əsrlərə aid Gürcüstan tarixinə həsr olunan xronikalardan ibarət olan əsərdə Şəddadilərə dair məlumatlar Şəddadi hakimi I Fəzl ilə gürcü kralı III David arasındakı 1012-1014-cü il baş verən döyüşdən sonra daha geniş şəkildə əks olunur. Xronikalar toplusunda Səlcuqluların da gəlməsi ilə baş verən hadisələr də geniş əks olunmuşdur. "Kartlis Sxovreba" əsəri əksər hallarda erməni və ərəb dilli qaynaqlarda əks olunan məlumatların tamamlanması üçün də öz əhəmiyyətini saxlayır. Əsər eyni zamanda hadisələrə fərqli bir prizmadan baxmaq üçün çox qiymətli bir alternativdir.

Şəddadilər tarixinə dair ən geniş məlumatlar erməni dilli qaynaqlarda əks olunmuşdur. Bəzi subyektiv məqamların olmasına baxmayaraq bu əsərlərdə bir çox yeni faktlar öz əksini tapmışdır. Bu baxımdan Vardan Arvaletsinin "Dünya tarixi" əsərinin xüsusi yeri vardır. Ən qədim zamanlardan 1269-cu ilə qədərki bir dövrü əhatə edən əsər xronika formasındadır və illərə əsasən hadisələr əks olunmaqdadır. Əsərin əhəmiyyəti ondan ibarətdir ki, burada Şəddadilərin tarix səhnəsinə çıxmaları öz əksini tapmışdı və bu baxımdan ilk qaynaq hesab olunur. Vardanın tarixinin müxtəlif dillərə tərcüməsi mövcuddur, lakin biz türkcə tərcüməsindən istifadə etdik (16).

Urfalı Mateos və Keşiş Qriqorun yazdıqları "Xronika" dövrü öyrənmək üçün dəyərli mənbələrdən biridir. Urfalı Mateos "Xronika"da 952-1136-cı illərə aid tarixi hadisələri əks etdirdiyi halda Keşiş Qriqor ona 1136-1162-ci illəri əhatə edən bir "Zeyl", yəni "Əlavə" yazdı (22). Əsər Şəddadilərin Gəncə dövrü haqqında bir o qədər də məlumat verməsə də Səlcuqluların Anadolu və Bizans üzərinə yürüşləri fonunda Şəddadilər torpaqlarında baş verən hadisələrə işıq tutur və bu məlumatlar da özünəməxsusluğu ilə seçilir.

Erməni qaynaqları içərisində Aristakes Lastivertsinin "Tarix" adlı əsərinin ən böyük üstünlüyü ondan ibarətdir ki, o əsərində Bizansa qarşı Səlcuqlu – Şəddadilər müttəfiqliyi haqqında ilk və yeganə məlumatları əks etdirir. Aristakes Lastivertsinin "Tarix" əsərinin ingiliscə tərcüməsi ən yaxşı tərcümələrdən birincisidir (11).

Samuel Anetsinin "Xronologiya cədvəli" adlı əsəri Şəddadilərin Ani dövrü haqqında çox dəqiq məlumatlara malikdir., çünki müəllifin özü məhz Ani şəhərində anadan olmuş, orada təhsil almış və keşişlik etmişdir. Əsərdə Ani ətrafında baş verən siyasi proseslər, gürcülərin buranı dəfələrlə işğal etməsi, ardından Atabəy Şəmsəddin Eldənizin buranı işğaldan qurtarması və sairə bu kimi məlumatlar əsərdə əks olunmaqdadır (2).

Şəddadilər dövrünə dair azlıq təşkil etsə də yunanca yazılmış Bizans qaynaqlarında da məlumatlar mövcuddur Belə qaynaqlardan biri də Con Skiltzesin "Snopsis Historiarum" ("Tarix xülasəsi") əsəridir. İngilis dilinə də tərcümə olunan əsər 811-1057-ci illərə dair tarixi hadisələri əks etdirir. Əsər daxili qiyamlar və xarici işğalçılar qarşısında Bizans – Şəddadilər müttəfiqliyi haqqında məlumatlar ilə önə çıxır (20).

Taronlu Stefanosun "Dünya tarixi" adlı əsəri də Şəddadilər tarixinin öyrənilməsi üçün olduqca qiymətlidir. Müəllif Ani şəhərində doğulmuş və burada yaşadığına görə verdiyi məlumatlar da dəqiqliyi ilə seçilir. Şəddadilərin Ani dövrünə dair məlumatların əks olunduğu əsərdə hakim I Fəzl və onun fəaliyyətlərinə dair də ilk məlumatlar da mövcuddur (3). Bundan başqa Mixitar Qoşun "Alban salnaməsi" adlı əsərində də cüzi də olsa dövrə dair məlumatlara rast gəlinir (14).

Şəddadilər dövrü mənbələrinə ümumi nəzər saldıqda belə qənaətə gəlmək olar ki, dövrün tamamını əhatə edən qaynaq mövcud deyildir. Qaynaqlarda məlumatlar pərakəndə formadadır və fikri tamamlamaq üçün başqa bir mənbəyə ehtiyac duyulur. Buna baxmayaraq qay-

naqlardakı məlumatlar biri digərini tamamlayır və bir-birində boşluqları doldurmaqda olduqca əhəmiyyətli yerdə dayanırlar. Heç şübhəsiz ki, dövrün mənbələri, onların tərcümələri haqqında bir məqalədə tam və əhatəli məlumat vermək mümkün deyildir. Bunun üçün daha dərin tədqiqatlar aparılması olduqca vacibdir.

### Ədəbiyyat


1. Abdurrahman İbnü`l-Cevzî. El-Muntazam Fî Târîhi`l-Ümem`de Selçuklular (H.430-483=1038-1092). Terc. ve Değ. Alı Sevım. Ankara: Türk Tarih Kurumu yayınları, 2011, 298 s. . Anetsi S. Tables Chronologiques // Collection d`Historiens Trans M. Brosset. St. Petersburg, 1876, p. 339-483
2. Asogik S. Des Stephannos von Taron Armenische Geschichte. Trans Heinrich Geizer, August Burckhardt. Leipzig, 1907
3. Azîmî Tarihi (Selçuklular Dönemiyle İlgili Bölümler H.430-538=1038/39-1143/44). Hazırlayan Ali Sevim. Ankara: Türk Tarih Kurumu yayınları, 2006,
4. Blair Sh. The monumental inscriptions from Early İran and Transosxiana. Muqarnas, VIII, Leiden, 1991, p. 66-73
5. İbn əl-Əsr. Əl-kamil fit-tarix. Əl-mucəlledul-əşir. Rəc`ə və səhhə: Dr.Muhəmməd Yusuf ər-Rəqaqə. Beyrut: Darul-kutubul-ilmiyyə, 2003, 519 s.
6. İbrahimi D. Enisü`l kulup. DİA, c. 11, İstanbul, 1995, s. 242
7. Keykâvus bin İskender bin Veşmgîr. Kâbûs-nâme: Giriş-Notlar-Metin-Sözlük/Dizin- Tıpkıbaskı. Çev. Sadru'd-dîn Mustafâ Şeyhoğlu. Haz. Enfel Doğan. Ankara: Türk Dil Kurumu yayınları, 2016, 348 s.
8. Qabusnamə. Bakı, "Şərq-Qərb", 2016, 216 s.
9. Qaṭrān Tabrīzī. Dīvān Ḥakīm Qaṭaran Tabrīzī, bi-sa'y va ihtimām Muḥammad Nakhjavānī. Tabrīz, Chāpkhānih-i Shafaq, 1333
10. Lastivertsi A. History. Translation Robert Bedrosian. New York, 1985, 370 p.
11. Minorsky V. A History of Sharvan and Darband in the 10th-11th Centuries, Cambridge, 1958, 227 p.
12. Minorsky V. Caucasica in History of Mayyafariqin // BSOAS XII, London, 1949, p. 27-35 Moisey Kalankatuklu. Albaniya tarixi., Mxitar Qoş. Alban Salnaməsi.
13. Tərcümə edən, müqəddimə, qeyd və şərhlərin müəllifi Ziya Bünyadov. Bakı: "Avrasiya press", 2006, 296 s.
14. Muhammed b. Ali b. Süleyman er-Râvendi. Râhat-üs-Sudûr ve Âyet-üs-Sürûr I-II ciltler. Çev. Ahmed Ateş. Ankara, Türk Tarih Kurumu yayınları, 2020, 4 69 s.
15. Müverrih Vardan. Türk fetihleri tarihi. Çeviren Hrand D. Andresyan. İstanbul: Post yayınları, 2017, 127 s.
16. Rəcəbli Ə. Azərbaycan sikkələri. Bakı: Xalq Bank, 2012, 355 s.
17. Sadruddîn Ebu'l-Hasan ʿAli İbn Nâsır İbn ʿAli el-Hüseynî. Ahbâr üd-devlet is-Selçukıyye. Tercüme eden Necati Lügal. Ankara: Türk Tarih Kurumu, 1943, 150 s.
18. Sıbt İbnu'l-Cevzî. Mir'âtü'z-Zamân fî Târîhi'l-Âyân'da Selçuklular. seçme, tercüme ve değerlendirme: Ali Sevim. Ankara, Türk Tarih Kurumu yayınları, 2011, 298 s.
19. Skyltzes J. A Synopsis of Byzantine History 811 – 1057. Translation John Wortley. New York, 2010, 502 p. – sj
20. 1.Şərifli M. IX əsrin II yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı: Turxan, 2015, 460 s.
21. Urfalı Mateos Vekayi-Nâmesi (952-1136) ve Papaz Grigor'un Zeyli (1136- 1162). Çeviren Hrant D. Andresyan. Ankara: Türk Tarih Kurumu yayınları, 2019, 411 s.
22. Zahîru`d-dîn Nîşâbûrî. Selçuknâme. Hazırlayan Ayşe Gül Fidan. İstanbul: Kopernik kitap, 2018, 174 s.
23. Картлис Цховреба. ("История Грузии"). Под редакцией академика Роина Метревели. Баку: "East-West", 2012, 456 с.
24. Сеидбейли М. Научно-культурная жизнь Азербайджана в первой половине XI-II начале XIV в.в. (на основе материалов Ибн –Аль- Фувати «Талхис Магма ал-Алат фу Муджан ал-алкиб»), Баку, Çaşıoğlu, 1999, 140 с.

## Резюме

### Арзу Бабирова

### Общий взгляд на первоисточники по истории государства Шаддадидов

В статье дается краткий обзор первоисточников по истории государства Шаддадидов. Автор рассматривает археологические источники, такие эпиграфические надписи и монеты изучаемого периода. Кроме того, вызывает интерес разбор письменных памятников эпохи на многих языках, таких как персидский, грузинский и т.д. В них находит отражение вопросы взаимодействия государства с соседями, а также взаимоотношения с Сельджуками. Есть указания на византийские источники, где упоминаются правители Шаддадидов и их военная и административная деятельность.

***Ключевые слова:*** *Шаддадиды, источники, монеты, период Ани, Сельджуки, конфликт*


## Summary

### Arzu Babirova

### General view of primary historical sources on the history of the Shaddadids

The article provides a brief overview of primary sources on the Shaddadids history. The author examines archaeological inscription and coins of the period. In addition, the analysis of written sources of the era as Persian, Georgian, etc. will be of interest. They reflect issues of interaction between state and its neighbors, as well as relations with Seljuks. The are indications of Byzantine sources, where the Shaddadid rulers and their military and administrative activities are mentioned.

***Keywords:*** *Shaddadids, sources, coins, period of Ani, Seljuks, conflict*